*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
İlham ƏLİYEV


DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 04 (446)

28 fevral 2015-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti




## BAŞ İDARƏDƏ QƏBUL

***İki qardaş ölkənin müvafiq qurumları arasında səmimi dostluq və hərbi əməkdaşlıq bundan sonra da davam edəcək***

**Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov fevralın 20-də xidməti ezamiyyətini başa vurmuş qoşunların 67987 saylı hərbi hissə komandirinin müşaviri polkovnik-leytenant Mevlüt Dirimi və onu əvəz edəcək polkovnik-leytenant Receb Yaltanı qəbul edib.**

İki qurum arasındakı qarşılıqlı xoş münasibətlərin müzakirə olunduğu görüşdə general-mayor Ş.Məmmədov Türkiyə Jandarm Baş Komandanlığının Daxili Qoşunlarda xidməti ezamiyyətdə olan hər bir hərbi qulluqçusunun təlim-tədrisin təkmilləşdirilməsi istiqamətində mühüm işlər gördüyünü diqqətə çatdırıb. Polkovnik-leytenant M.Dirim isə öz növbəsində Daxili Qoşunlarda xidməti ezamiyyətdə olmaqdan məmnunluğunu ifadə edib. O, həmçinin bu müddət ərzində göstərilən diqqət və qayğıya görə Daxili Qoşunların Komandanlığına minnətdarlığını bildirib.

Görüşdə qeyd olunub ki, iki qardaş ölkənin müvafiq qurumları arasında səmimi dostluq və hərbi əməkdaşlıq bundan sonra da davam edəcək.

Cənab Komandan qoşunlarda xidmətə yeni başlayan polkovnik-leytenant R.Yaltana gələcək fəaliyyətində uğurlar arzulayıb.

Görüşün sonunda Daxili Qoşunlar Komandanı polkovnik-leytenant M.Dirimi "Fərman" və qiymətli hədiyyə ilə mükafatlandıraraq onunla xatirə şəkli çəkdirib.

**leytenant X.Tağıyeva**

## NAZİRLƏR KABİNETİ İŞ VƏ İSTİRAHƏT GÜNLƏRİNİN YERİNİN DƏYİŞDİRİLMƏSİ HAQQINDA QƏRAR QƏBUL EDİB

Azərbaycan Respublikasının Nazirlər Kabineti iş və istirahət günlərinin ardıcıl olmasını təmin etmək məqsədi ilə 2015-ci ilin 29 mart istirahət günü ilə 27 mart iş gününün yerinin dəyişdirilməsi haqqında qərar qəbul edib. Nazirlər Kabinetinin mətbuat xidmətindən verilən məlumata görə, qərar Azərbaycan Respublikası Əmək Məcəlləsinin 105-ci maddəsinin 7-ci hissəsinə və "Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2006-cı il 8 dekabr tarixli 194-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 dekabr tarixli 489 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən qəbul edilib.

**AzərTAc**

# BEYNƏLXALQ TƏDBİRLƏRİN MƏKANINA ÇEVRİLƏN ODLAR YURDU - AZƏRBAYCAN

***Tarixi əhəmiyyət kəsb edən "Bakı-2015" I Avropa Oyunlarına hazırlıq işləri plana uyğun şəkildə həyata keçirilməkdədir***

**"Bakı 2015" I Avropa Oyunları (ing. 2015 European Games) bu il iyunun 12-dən 28-dək Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilməsi planlaşdırılan, bir çox innovativ idman növünü özündə cəmləşdirən ilk Avropa oyunlarıdır. Oyunlar Avropanın 49 Milli Olimpiya Komitəsini birləşdirən Beynəlxalq Olimpiya Təşkilatı tərəfindən keçirilir.**

**12-28 iyun tarixləri arasında keçiriləcək Oyunlarda 49 ölkədən 20 idman növü üzrə 6000-dən çox idmançının yarışacağı gözlənilir.**




Tarixdə ilk Avropa Oyunlarının keçirilməsi barədə qərar 8 dekabr 2012-ci il tarixində Romada baş tutmuş Avropa Olimpiya Komitəsinin 41-ci Baş Assambleyasında qəbul edilib. Avropa Oyunlarının hər dörd ildən bir keçirilməsi planlaşdırılır. Növbəti Oyunlar 2019-cu ildə baş tutacaq.

Baş Assambleya iştirakçıları arasında keçirilmiş gizli səsvermə nəticəsində 48 səsdən 38 səs ilə (əleyhinə 8 səs, bitərəf 2 səs) ilk Avropa Oyunlarının Bakıda keçirilməsi barədə qərar qəbul edilmişdir. Ermənistan nümayəndələri səsvermədə iştirakdan imtina ediblər.

Bakıda keçiriləcək I Avropa Oyunlarından məsul olan Təşkilat Komitəsi Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə qurulmuşdur. Komitəyə Azərbaycanın birinci xanımı, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva sədrlik edir. "Bakı 2015" I Avropa Oyunları Əməliyyat Komitəsi (BAOƏK) Təşkilat Komitəsinin sədrinin qərarı ilə yaradılmışdır. BAOƏK-in baş icraçı direktoru gənclər və idman naziri Azad Rəhimov və baş əməliyyat direktoru Ssaymon Kleqdir.

"Bakı 2015" I Avropa Oyunları Əməliyyat Komitəsinin Əməliyyatlar üzrə Baş direktoru cənab Saymon Kleq 8 oktyabr 2014-cü il tarixində Avropa Oyunlarına hazırlıq işlərinin təyin olunmuş vaxtda tamamlanacağı barədə bəyanat vermişdir.

I Avropa Oyunları üçün 4 obyekt qrupu üzrə 18 yarış obyekti mövcuddur. Daimi idman obyeklərinin sayı 12-dir. Onlardan beşi - Milli Gimnastika Arenası, BMX Veloparkı, Bakı Su İdmanı Mərkəzi, Bakı Atıcılıq Mərkəzi və Milli Stadion yeni inşa edilib. Həmçinin Su Polosu Arenası, Çimərlik Arenası, Basketbol Arenası, Dağ Velosipedi Veloparkı, eyni zamanda Triatlon və Velosiped yarışları üçün nəzərdə tutulmuş altı müvəqqəti idman obyekti də yaradılmışdır.

13 binadan, üç və dördotaqlı 16 müxtəlif növ mənzildən ibarət olan "Atletlər kəndi" Bakının Nizami rayonunda yerləşir.

2014-cü ilin iyun ayında Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Naziri Bakı şəhərində azad Wi-Fi yaradılması ilə bağlı plan hazırladı. Layihənin parklar, stadionlar və ticarət mərkəzləri də daxil olmaqla Bakının bütün ictimai yerlərində yaradılması nəzərdə tutulur.

Azərbaycan Respublikası Prezidentinin 8 Avqust 2014-cü il tarixli fərmanına uyğun olaraq, əcnəbilər və daimi xarici ölkələrdə yaşayan vətəndaşlığı olmayan şəxslər "Bakı 2015" I Avropa Oyunlarına bilet aldıqları təqdirdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Konsulluq İdarəsinə yaxınlaşaraq viza əldə edə bilərlər. İdarələr Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında yerləşir və bu prosedur 2 iyun 2015-ci il tarixindən etibarən başlayacaq. Tamaşaçılardan bilet almaq və ya bilet alışına dair sənədin təsdiqini əldə etmək üçün Bilet satışı web səhifəsindən xüsusi formanı doldurmaları xahiş olunur. Gəldikdən sonra viza əldə etmək üçün bileti və ya biletin alınmasını təsdiq edən sənədi təqdim etmək lazımdır.

"Bakı 2015" I Avropa Oyunları bilet satışı üzrə qeydiyyat səhifəsini açıq elan etdi. Web sayt beynəlxalq və azərbaycanlı idman azarkeşlərinə oyunların idman proqramı üzrə nəzərdə tutulan biletlərdə edilən yeniliklər və "Bakı 2015"-lə bağlı son xəbərlər üçün müraciət etmək imkanı yaradır.

Bakı I Avropa Oyunları Əməliyyat Komitəsi tərəfindən Oyunlara 12000 könüllünün cəlb olunması nəzərdə tutulur.

Açılış mərasimi 12 iyun tarixində Milli Stadionda Afina 2004 Olimpiya Oyunları Mərasimlərinin bədii direktoru olmuş tanınmış incəsənət xadimi, xoreoqraf və aktyor Dimitris Papaioannounun rəhbərliyi altına həyata keçiriləcək.

Açılış və bağlanış mərasimlərinin təşkili üçün ABŞ-ın "FiveCurrents" şirkəti ilə müqavilə bağlanmışdır.

Bakıda Avropa Oyunlarında 20 idman növündə yarışların keçirilməsi gözlənilir. Oyunların proqramına 28 yay olimpiya idman növündən 15-i, həmçinin 2 qeyri-olimpiya idman növü daxil olacaq. Bu günə qədər beynəlxalq həndbol, voleybol, reqbi, boks, cüdo, biatlon, atçılıq, badminton, taekvando, kamandan oxatma, qılıncoynatma, kanoe, stolüstü tennis və güləş federasiyaları artıq Bakıda keçiriləcək I Avropa Oyunlarında iştiraklarını təsdiq ediblər.

Bakı I Avropa Oyunları Beynəlxalq İdman Teleyayımı Şirkəti (International Sports Broadcasting, ISB) tərəfindən yayımlanacaq. 16 gün davam edəcək I Avropa Oyunları yarışması zamanı Beynəlxalq İdman Yayımı Teleyayımı yüksək dəqiqliklə gözlənilən 1200 saatlıq yüksək keyfiyyətli teleyayımı təmin edəcək. Bura bütün yarımfinal və finalların canlı yayımı və gündəlik əsas göstəricilər barədə məlumatın verilməsi daxildir. ISB açılış və bağlanış mərasimlərini və Azadlıq Meydanında təşkil ediləcək axşam əyləncə tədbirlərini də yayımlayacaq.

"Bakı 2015" I Avropa Oyunlarının rəsmi loqosu 16 iyun 2014 tarixində elan edilmişdir. 35 yaşlı azərbaycanlı Adəm Yunisov tərəfindən tərtib edilmiş bu yeni loqo Alov, Su, əfsanəvi Simurq quşu, Xalı və Nar da daxil olmaqla, ev sahibi ölkənin qədim, müasir mədəniyyət və səylərini formalaşdırmış beş başlıca elementi bir araya gətirmişdir. A.Yunisovun açıq ictimai müsabiqə nəticəsində seçilmiş loqo tərtibatı ölkənin təbii gözəlliklərini, mədəniyyət irsini, o cümlədən Avropanın ən sürətlə böyüyən iqtisadiyyatı və şəhərlərindən biri kimi Bakının assosiasiyasını təsvir edir.

"Bakı 2015" I Avropa Oyunları Azərbaycanın təbiətindən və irsindən ruhlanaraq "Ceyran" və "Nar"ı Oyunların rəsmi simvolları elan edir. Bu cütlük "Bakı 2015"-in təbliğatında brend rolunda çıxış edərək bütün dünyada birinci Avropa Oyunlarının simvoluna çevriləcək.

"Ceyran" qonaqlara Azərbaycanın zəngin irsinə nəzər salmağı təklif etməklə Oyunların mədəniyyət elçisi olacaq. Qafqaz dağlarından tutmuş Xəzər dənizinin sahillərinədək "Ceyran" qonaqlara ölkə boyu bələdçilik edəcək və onlara Azərbaycanın gözəlliklərini nümayiş etdirəcək. Ceyran ölkədə təbii gözəlliyin, zərifliyin və saflığın simvolu və Azərbaycanda qorunan heyvan növlərindən biridir. Nar günəşi sevən, Göyçay şəhərində bitən meyvədir. Həyat eşqi və enerji ilə aşıb-daşan "Nar" yeni idman növlərində iştirak etməyi sevir və I Avropa Oyunları tədbirinə qoşulacaq. Nar Azərbaycan folklorunda birliyi tərənnüm edir və rəngarəng "Bakı 2015" brendində əks olunaraq artıq şəhərimizdə geniş şəkildə nümayiş etdirilib. "Bakı 2015"-in əməliyyatlar üzrə baş direktoru Saymon Kleq deyib: "Bizim simvollar ilk Avropa Oyunları üçün çox əhəmiyyətlidir və onları "Bakı 2015" ailəsində salamlamağa çox şadıq. "Ceyran" Oyunların və Azərbaycanın zəngin irsinin zərif mədəniyyət elçisi olacaq. "Nar" Oyunların enerjisini, həyəcanını və əyləncəsini təmsil edir və idman sahələrində keçirilən yarışlarda iştirak edəcək".

"Bakı 2015"-in kommersiya direktoru Çarli Viceratna söyləyib: "Biz I Avropa Oyunlarının əyləncəli və rəngarəng olmasını istəyirik və ümid edirik ki, "Ceyran" və "Nar" bütün Azərbaycanda məşhurlaşacaq. Belə ki, biz "Bakı 2015"-də Avropanın məşhur idmançılarına ev sahibliyi etməyə hazırlaşırıq. Simvollar illüstrasiya olaraq yaradılıb, amma tezliklə animasiyalı və real görünüşə sahib olacaq".

"Procter & Gamble" şirkəti 21 may 2014-cü ildə I Avropa Oyunlarının açılışının ilk rəsmi tərəfdaşı oldu. İsveçrə saat şirkəti "Tissot" rəsmi hakim-xronometr adlandırılıb və bütün vaxt və xal göstərici qurğularla təmin edəcək.

"Motorola Solutions" 2014-cü il noyabrın 13-də Rəsmi Radio Rabitə Tərəfdarı kimi "Bakı 2015" I Avropa Oyunları ilə tərəfdaşlıq etməyi üzərinə götürüb.

Qeyd edək ki, bağlanış mərasimi iyunun 28-də Milli Stadionda həyata keçiriləcək.

2_Layout 1 27.02.2015 12:38 Page 1



# DAXİLİ QOŞUNLARIN GƏNC ƏSGƏRLƏRİ VƏTƏNƏ SƏDAQƏT ANDI İÇDİLƏR

***Fevralın 14-də Dövlət Bayrağı Meydanında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının gənc əsgərlərinin andiçmə mərasimi keçirildi. Mərasimdə əsgər valideynləri də iştirak edirdi.***





Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Nümunəvi-göstərici hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa olundu.

Hərbi hissə komandiri polkovnik Salamat Cəfərov çıxış edərək, gənc əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına sədaqət andı içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri xatırlatdı.

Sonra gənc əsgərlər Hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü qanını və canını əsirgəməyəcəklərinə söz verdilər.

Andiçmə mərasimində iştirak edən Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov Qoşunlarda yeni xidmətə başlayan gənc əsgərləri hərbi andiçmə münasibətilə təbrik etdi və öz tövsiyələrini çatdırdı.

Cənab Komandan qeyd etdi ki, bu andan etibarən onlar da Daxili Qoşunların bütün şəxsi heyəti kimi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsinə hər an hazır olmalıdırlar.

Daxili Qoşunların Komandanı həmçinin gənc əsgərlərə xitabən vurğuladı ki, bu müqəddəs andın mənasını tam dərk etməli, vətəndaşlarımızın təhlükəsizliyi və torpaqlarımızın müdafiəsi istiqamətində əllərindən gələni əsirgəməməlidirlər.

Döyüşçü-şair Elxan Xəzər, əsgər valideynləri adından çıxış edən Ələddin Hüseynov gənc əsgərləri Hərbi andiçmə münasibətilə təbrik edərək, onlara səmimi, cəsur və intizamlı, daim Vətənin müdafiəsinə hazır olmağı, Azərbaycan əsgərinə xas olan bütün xüsusiyyətləri özlərində formalaşdırmağı tövsiyə etdilər.

Andiçmə mərasimi gənc əsgərlərin təntənəli keçidi ilə başa çatdı.

**Mətbuat xidməti**

# HƏRBİ QULLUQÇULARIMIZ XİDMƏTDƏ SAYIQLIQ NÜMAYİŞ ETDİRİB

99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Abıyev Tural Ədalət oğlu fevralın 13-də təxminən saat 18:50 radələrində I Avropa Oyunlarının keçiriləcəyi ərazidə yerləşən «Atletlər kəndi»ndə postda xidmət apararkən həmin ərazidən keçən 3 nəfər mülki vətəndaşı qanun pozuntusuna yol verdiklərinə görə saxlayıb. Daxili Qoşunların hərbi qulluqçusu onların məsuliyyətə cəlb olunmaları üçün sayıqlıq göstərib, müvafiq qanun pozuntusunun qarşısını alaraq, şəxsi nizam-intizam nümayiş etdirib.



Göstərilənlərlə yanaşı, 99713 saylı hərbi hissənin hərbi qulluqçuları vəzifə borclarının icrasına vicdanla yanaşaraq, xidmət apardıqları ərazidə ictimai-asayişin qorunub-saxlanılması istiqamətində daha bir qanun pozuntusunun qarşısını alıblar.

Belə ki, fevralın 20-də təxminən saat 03:15 radələrində «Atletlər kəndi»ndə müvafiq postlarda xidmət aparan hərbi qulluqçular- müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Həsənov Elvin Sahəddin oğlu və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Mitubullayev Təbriz Ağa oğlu sayıqlıq göstərərək 1 nəfər mülki şəxsi saxlayıb və onu təqib edən yol-patrul xidmətinin əməkdaşlarına təhvil veriblər.

Fəxrlə deyə bilərik ki, hərbi qulluqçularımız Daxili Qoşunların ənənələrinə sadiq qalaraq bu gün də xidmətdə sayıqlıq nümayiş etdirir və ictimai asayişin qorunub-saxlanılması istiqamətində fədakarlıq göstərirlər.

99713 saylı hərbi hissənin şəxsi heyətinə şərəfli xidmətlərində uğurlar arzulayırıq.

**"Əsgər"**

***Beynəlxalq Olimpiya Təşkilatı tərəfindən bu il Bakıda keçirilməsi planlaşdırılan, bir çox innovativ idman növünü özündə cəmləşdirən ilk Avropa Oyunlarında 49 ölkədən 6000-dən çox idmançının yarışacağı gözlənilir. İyunun 12-dən 28-dək davam edəcək yarışlarda idmanın 20 növü üzrə keçiriləcək I Avropa Oyunlarına ev sahibliyi etmək təbii ki, böyük məsuliyyət tələb edir. Yarışların yüksək səviyyədə keçirilməsi üçün bütün ölkə miqyasında müvafiq tədbirlər demək olar ki, artıq yekunlaşmaq üzrədir. Respublikamızın vacib güc strukturlarından sayılan Daxili Qoşunların da üzərinə mühüm vəzifələr düşür.***

# I AVROPA OYUNLARI ZAMANI İCTİMAİ TƏHLÜKƏSİZLİK YÜKSƏK SƏVİYYƏDƏ TƏMİN OLUNACAQ

**Bu istiqamətdə görülən işlər barədə Əməliyyat və Döyüş Hazırlığı İdarəsinin rəisi - Qərargah rəisinin müavini polkovnik İnqilab Muradov məlumat verdi.**



O, ilk növbədə bildirdi ki, Daxili İşlər Nazirliyinin "2015-ci ilin iyun-iyul aylarında respublikada keçiriləcək I Avropa Oyunları zamanı ictimai qaydaların qorunması və ictimai təhlükəsizliyin təmin olunması" ilə bağlı tədbirlər planı işlənib hazırlanmışdır. Bundan əlavə, nazirliyin "İctimai təhlükəsizliyin və ictimai asayişin qorunması üzrə" müvafiq əmri ilə əlaqədar olaraq, "Daxili Qoşunların Baş İdarəsində xidmətə cəlb olunan şəxsi heyətin plan hesabı, əməliyyat qərargahlarının yaradılması" haqqında Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının əmri imzalanıb.

Polkovnik İ.Muradov qeyd etdi ki, "I Avropa Oyunlarına hazırlıqla bağlı istifadə olunacaq idman və qeyri-yarış obyektlərində mühafizə xidmətinin təşkilinə dair dislokasiya planı"na əsasən, Daxili Qoşunlar "Atletlər" və "Mediya" kəndlərində, həmçinin "Şəfa" stadionunda mühafizə xidmətini həyata keçirir: "Şəxsi heyət 19 idman arenasında və 6 qeyri-yarış obyektlərində xidmətə cəlb olunacaq. Bunun üçün Daxili Qoşunların Baş İdarəsi ilə yanaşı, bir sıra hərbi hissələrdən müvafiq sayda şəxsi heyət ayrılıb".

Xidmətə cəlb olunan şəxsi heyətin üzərinə böyük məsuliyyətin düşdüyünü vurğulayan idarə rəisi yarışların keçiriləcəyi ərazilərdə, həmçinin idman arenalarında ictimai asayişin və ictimai təhlükəsizliyin qorunmasının, həmin ərazilərə xüsusi icazəsi olmayan şəxslərin və avtomaşınların daxil olmasının, eyni zamanda baş verə biləcək digər xoşagəlməz halların qarşısının alınmasının qoşunların əsas vəzifələrindən olduğunu söylədi. O, bunun üçün hərbi hissələrin komandanlıqlarının xidmətaparma yerləri ilə əyani tanışlığının təmin olunduğunu, həmçinin hərbi hissələrdə sıra baxışlarının planlaşdırıldığını da nəzərə çatdırdı: "Yarışlarda iştirak edəcək vətəndaşları xüsusi aparatlarla yoxlamaq məqsədilə hərbi qulluqçularımız polis orqanlarının əməkdaşları ilə birlikdə müvafiq kurslar keçirilib. Daxili Qoşunların Baş İdarəsində isə xidmətə cəlb edilən qadın hərbi qulluqçularla 45 günlük ingilis dili kursları təşkil olunub".

Bu tədbirlərin may ayının 24-nə kimi yekunlaşacağını bildirən polkovnik İ.Muradov göstərilən tarixdən etibarən xidmətaparma yerlərinin mühafizəyə götürüləcəyini də sözlərinə əlavə etdi.

**Söhbət zamanı xidmətin daha yüksək səviyyədə təşkil olunması üçün yeni müasir texnikaların və avtomobillərin alındığı da məlum oldu. Bu barədə Avtomobil və Zirehli texnika şöbəsinin rəisi polkovnik Fuad Alıyev məlumat verdi.** O, yarışlar zamanı şəxsi heyətin daşınması üçün əsasən iritutumlu və ortatutumlu avtobuslardan istifadə olunacağını dedi. Bundan əlavə, mühəndis xidməti üçün 3 ədəd avtobus, 1 ədəd kinoloji avtomobil, həmçinin 12 ədəd "Hyundai HD-72" markalı avtomobil və şəxsi heyətin keyfiyyətli ərzaqla təmin olunması üçün üzərində soyuducu quraşdırılmış refrijerator da alındığını diqqətə çatdırdı.

Həyata keçirilən tədbirlər onu deməyə əsas verir ki, Daxili Qoşunların şəxsi heyəti ölkəmizin tarixində əlamətdar hadisələrdən hesab olunan I Avropa Oyunları zamanı təhlükəsizliyin yüksək səviyyədə təmin edilməsinə və ictimai asayişin qorunmasına tam hazırdır.

**leytenant X.Tağıyeva**

***Digər hüquq mühafizə qurumları ilə yanaşı, ölkədəki daxili sabitliyin sadiq keşikçisi olan Daxili Qoşunlara həvalə olunmuş vəzifələrdən biri də mədəni-kütləvi tədbirlər, beynəlxalq festivallar zamanı ictimai asayişin və ictimai təhlükəsizliyin qorunmasıdır. Daxili Qoşunlar 2012-ci ildə keçirilən "Avroviziya" mahnı müsabiqəsinin, 2014-cü ildə Yüngül atletika və gimnastika yarışının keçirildiyi sarayların, komplekslərin, habelə idmançıların qaldıqları "Atletlər kəndi"nin mühafizəsini uğurla həyata keçirib. Qarşıya qoyulmuş vəzifələri yüksək peşəkarlıqla icra edən qoşunların şəxsi heyəti bu sahədə kifayət qədər təcrübəyə malikdir desək, yanılmarıq. Dünyada ilk dəfə olaraq Bakıda baş tutacaq I Avropa Oyunları zamanı yarışların keçiriləcəyi stadionlarda mühafizənin təşkilinin Daxili Qoşunlara həvalə olunması bunun əyani sübutudur.***

# XİDMƏTİ İTLƏRİN YETİŞDİRMƏ MƏNTƏQƏSİ TAPŞIRIQLARIN ÖHDƏSİNDƏN LAYİQİNCƏ GƏLİR







Obyektlərin mühafizəsi zamanı şəxsi heyət kinoloji xidmətin fəaliyyətindən geniş şəkildə istifadə edir. Bu baxımdan, xarici ölkə nümayəndəliklərinin yerləşdiyi inzibati binaların gündəlik olaraq təhlükəsizlik tədbirlərinin görülməsində yaxından iştirak edən qoşunların xidməti itlərin yetişdirmə məntəqəsinin fəaliyyəti müstəsna əhəmiyyət kəsb edir. Daxili Qoşunların kinoloji xidməti barədə ətraflı məlumatı Əməliyyat və döyüş hazırlığı İdarəsinin Döyüş hazırlığı şöbəsində xidməti heyvanların hazırlanması üzrə baş zabit polkovnik-leytenant Elbəy Kazımov verdi. O, bildirdi ki, cinayətkarların axtarılması, tutulması, narkotik maddələrin, maddi sübut hesab edilə biləcək əşyaların tapılması, silah-sursatın, həmçinin kustar üsul ilə hazırlanmış partlayıcı qurğuların aşkar edilib üzə çıxarılması kimi mühüm tapşırıqlar Xidməti itlərin yetişdirmə məntəqəsinin üzərinə düşən əsas vəzifələrdir. Bu gün məntəqə tapşırılmış obyektlərin mühafizəsini təşkil etməklə yanaşı, təlim məşqlərinə də cəlb olunub. O, 2014-cü ilin dekabr ayından Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, I Avropa Oyunlarına hazırlıq prosesinin başlanıldığını söylədi. Qeyd etdi ki, hal-hazırda xidmətə cəlb olunacaq hərbi qulluqçular və xidməti itlərlə təlim kursları keçirilir: "Kurslar həm nəzəri, həm də praktik olaraq təşkil olunub. Təlimçilərə ümumi biliklərin, peşə vərdişlərinin artırılması üzrə ixtisas dərsləri keçirilir və xidməti itlərlə işləmək metodu, eləcə də təhlükəsizlik qaydaları öyrədilir. Heyvanlara isə xüsusi qurğularda partlayıcıya toxunmadan yerinin müəyyən edilməsi kimi təlim məşqləri keçirilir".

Yeri gəlmişkən onu da deyim ki, məşqlərdə qabaqcıl ölkələrin təcrübə və metodlarından istifadə olunur. Təlimlərdə fəal hərbi qulluqçuların adlarını da sadalamaq istərdim. Bunlar kiçik çavuş Rəşad Ələkbərov, baş əsgər Nicat Əhmədli, əsgərlər Vasif Əliyev, Təbriz Sultanov və Ceyhun Budaqovdur. Polkovnik-leytenant E.Kazımov həvalə olunmuş vəzifələrin məsuliyyətindən danışaraq, təlimlərə ciddi şəkildə nəzarət etdiyini vurğuladı. O, nəzəri və praktiki məşğələlərin keçirilməsində Xidməti itlərin yetişdirmə məntəqəsinin rəisi baş leytenant Pərviz Əliyevin əməyini də diqqətə çatdırdı.

Baş leytenant P.Əliyev tabeçiliyində olan şəxsi heyətin peşə hazırlığının artırılması, itlərin məşq etdirilmə səviyyəsinin yüksək dərəcəyə çatdırılması məqsədilə dərslərin keyfiyyətlə keçirilməsini təşkil edir. Bu istiqamətdə bütün bilik və bacarıqlarını hərbçi yoldaşları ilə paylaşır. Məntəqə rəisi bütün görülən işlərlə yanaşı, itlərin saxlanılmasının, qorunmasının və sağlamlıqlarının vacib olduğunu nəzərə çatdırdı. O, söhbət əsnasında baytar həkim leytenant Xətai Şirinovun heyvanların sağlamlıqlarının qorunub saxlanılması istiqamətində gördüyü baytarlıq tədbirlərinin keyfiyyətlə həyata keçirildiyini də önə çəkdi: "Xidməti itlərin saxlanma yerlərində gündəlik dezinfeksiya işləri aparılır, eyni zamanda zoonoz xəstəliklərə qarşı profilaktik tədbirlər həyata keçirilir. Nəzərdə tutulmuş müayinələr vaxtlı-vaxtında aparılır".

Göründüyü kimi, paytaxt Bakıda keçiriləcək I Avropa Oyunları zamanı təhlükəsizliyin Daxili Qoşunlar tərəfindən yüksək səviyyədə təmin olunması üçün bütün zəruri tədbirlər həyata keçirilməkdədir. Hərbi qulluqçularımızın yüksək döyüş hazırlığı və görülən işlər bunu deməyə əsas verir.

**baş leytenant T.Əlizadə**

3_Layout 1 27.02.2015 12:40 Page 1



*__İnsanı öyrənən 200-ə qədər elm sahəsi var ki, onlardan biri də psixologiyadır. Psixologiya, eyni zamanda insanlar arasında qarşılıqlı münasibətləri öyrənir.__*

*__Bu gün Daxili Qoşunlarda hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin formalaşmasında, ümumiyyətlə, hərbi kollektivlərdə sağlam mənəvi-psixoloji mühitin yaradılmasında, mənəvi-psixoloji hazırlığın yüksək səviyyədə saxlanılmasında psixoloqların rolu böyükdür. Belə ki, onlar hərbi qulluqçularla fərdi psixoloji söhbətlər aparır, nizamnamədənkənar münasibət hallarının qarşısının alınması üçün psixoloji xidmət işini həyata keçirirlər.__*

*__Bunun üçün hərbi kollektivin psixoloji cəhətdən öyrənilməsi vacibdir. Bu isə bölmənin ümumi parametrik təsvirlərlə yanaşı, funksional təyinatının, şəxsi heyətin sosial-demoqrafik xarakteristikasının, peşəkar hazırlıq səviyyəsinin və döyüş fəaliyyəti təcrübəsinin öyrənilməsini özündə birləşdirir.__*

# DAXİLİ QOŞUNLARDA PSİXOLOJİ XİDMƏT İŞİNİN TƏŞKİLİ VƏ EFFEKTİVLİYİ

Daxili Qoşunların bütün hərbi hissələrində olduğu kimi, Ali Hərbi Məktəbdə də psixoloji xidmət işi müvafiq tədbirlər planına əsasən həyata keçirilir. Bu tədbirlər sırasına şəxsi heyətin psixoloji dözümlülüyünün, psixi sağlamlığının artırılması, onların ailə üzvlərinin, məktəbdə çalışan mülki işçilərin sabit psixoloji durumunun təmin edilməsinə yönəlmiş fəaliyyət daxildir. Belə ki, Ali Hərbi Məktəbdə psixoloji xidmət işini səmərəli təşkil etmək üçün tərbiyə bölməsi tibb xidməti ilə birgə fəaliyyət göstərərək, şəxsi heyətin mənəvi-psixoloji vəziyyətini düzgün tənzimləməyə səy göstərirlər. Psixoloji xidmətin lazımi səviyyədə aparılması nəticəsində:

*- hərbi qulluqçularda Vətəni müdafiəyə yüksək mənəvi və psixoloji hazırlıq, hərbi borcu yerinə yetirməyə həvəs və s. təmin olunur;*

*- döyüş-təlim fəaliyyətinin təşkilində psixoloji hazırlığın forma və metodlarından istifadə edilir;*

*- kiçik komandirlərin və ixtisaslarına uyğun əsgərlərin seçilməsində psixoloji seçimə əsasən fərdi psixoloji keyfiyyətləri, bilik, bacarıq və vərdişləri nəzərə alınır;*

*- hərbçilərin psixi sağlamlıqlarını möhkəmlədən tədbirlərdən istifadə etmək kimi müəyyən vəzifələr əsas götürülərək, hərbi qulluqçuların qarşılıqlı münasibətlərinin düzgün tənzimlənməsi məqsədilə hərbi kollektivdə etik normalar gözlənilməklə, qarşısındakının ləyaqət və şəxsiyyətinə hörmətlə yanaşılır, yüksək əhval-ruhiyyə yaratmaq prinsipinə uyğun olaraq, psixoloji xidmət işi həyata keçirilir.*

Ümumiyyətlə, yuxarıda sadalanan prosedur qaydalar Daxili Qoşunların hərbi hissələrində müvafiq olaraq həyata keçirilməkdədir. Məsələn, Ali Hərbi Məktəbin təlimatçı-psixoloqu kursantlar, eləcə də, müddətli hərbi qulluqçuların yeni mühitə adaptasiya prosesində yaranan çətinlikləri, psixi vəziyyətlərindəki problemləri, normadankənar davranışı, şəxslərarası münasibətlərin qeyri-leqal qurulmasını, diqqət zəifliyini, fərdi psixoloji xarakterik xüsusiyyətlərini öyrənir. Həmçinin əsəbi psixi davamsızlıq, psixoloji yardım göstərilməsinə ehtiyacı olanların vaxtında aşkar edilməsi, onların psixoloji müşahidədə saxlanılması, əlverişli psixoloji mühitin yaradılması və s. aspektdən psixoloji xidmət işini uğurla həyata keçirməyə səy göstərir.

Bunun üçün Ali Hərbi Məktəbdə təhsil alan kursantlar üçün “Hərbi kollektivin psixologiyası”, “Mənəvi ruh hərbi kollektivin möhkəmliyi üçün vacibdir” mövzularında konfranslar, “Zabit-əsgər, əsgər-əsgər münasibətlərinin düzgün tənzimlənməsi”, “Nizamnamədənkənar davranışın müəyyənləşdirilməsi və profilaktikası” mövzusunda seminar məşğələlər aparılır, hərbi qulluqçular arasında psixoloji maarifləndirmə işini gücləndirmək məqsədi ilə bölüklərdə “Əsgər” divar qəzetində psixoloji məqalələrin mütəmadi dərc edilməsi işinə yaxından köməklik göstərilir. Bu zaman onların istək, arzu və rəyləri əsas götürülərək, söhbətlər, diskussiyalar keçirilir ki, bunların da məhz şəxsi heyətin təlim-tərbiyəsində, eyni zamanda, döyüş ruhunun yüksəldilməsində müstəsna rolu vardır.

Bir sözlə, Ali Hərbi Məktəb üzrə zabit, gizir, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları, kursantlar, müddətli hərbi qulluqçular, həmçinin, mülki işçilər ilə psixoloji xidmət işi psixodiaqnostik, psixokonsultativ, psixokorreksiya, psixoprofilaktik istiqamətlər üzrə aparılaraq, diqqət mərkəzində saxlanılır, şəxsi heyətin mənəvi-psixoloji durumunun yüksək səviyyədə olmasına səy göstərilir. Bu da öz növbəsində əhval-ruhiyyəsi yüksək olan hərbi qulluqçunun məsuliyyətini dərk edərək üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməsi, möhkəm nizam-intizamın mövcud olması deməkdir.

**Ali Hərbi Məktəbin tərbiyə bölməsində təlimatçı-psixoloq Mərifət Məmmədova**

# MÜHÜM DÖVLƏT OBYEKTLƏRİ YÜKSƏK SƏVİYYƏDƏ MÜHAFİZƏ OLUNMAQDADIR



**“Nümunəvi hərbi intizam və yüksək döyüş hazırlığı uğrunda!” şüarı altında xidmət aparan 16076 saylı hərbi hissənin şəxsi heyəti vəzifə borclarından irəli gələn tələblərə uyğun olaraq, qorunan obyektlərin etibarlı mühafizəsi və müdafiəsinin təmin edilməsi üzrə qarşıya qoyulmuş tapşırıqları keyfiyyətlə yerinə yetirir.**

Bölmələrin çevik, gizli və fasiləsiz idarə olunması hərbi hissə komandanlığının daim diqqət mərkəzində saxlanılır. Bölmələrdə idarəetmənin səmərəsinin artırılması, yüksək döyüş hazırlığının qorunub saxlanılması məqsədilə yaradılmış idarəetmə məntəqələrinin fəaliyyəti təkmilləşdirilir, hərbi hissədən, habelə mühafizə olunan mühüm dövlət obyektlərinin yerləşdiyi fəaliyyət rayonlarından əməliyyat məlumatları fasiləsiz toplanılaraq təhlil edilir. Qəbul olunmuş qərarlar vaxtlı-vaxtında aidiyyəti üzrə çatdırılır və əlaqəli orqanlarla qarşılıqlı fəaliyyət təşkil edilir.

Bu barədə məlumat verən hərbi hissə komandiri mayor Tural Novruzov qeyd etdi ki, hərbi hissənin döyüş hazırlığının əsasını mühüm dövlət obyektlərinin etibarlı mühafizəsinin təşkili, qəflətən qarşıya çıxan tapşırıqların dəqiq və vaxtında yerinə yetirilməsi, dövlət obyektlərində basqınlar, fövqəladə vəziyyət zamanı müvafiq tədbirlərin həyata keçirilməsi təşkil edir.

Döyüş hazırlığının yüksək səviyyədə saxlanılması üçün gündəlik olaraq hərbi hissədə olan bölmələrlə, təlim proqramına uyğun olaraq məşğələlər keçirilir. Bu məşğələlərdə döyüş xidmətinin əsasları, döyüş hazırlığının yüksək səviyyədə saxlanılması, dözümlülüyün artırılması istiqamətində bütün kateqoriya komandirlər tərəfindən müvafiq işlər aparılır. Şəxsi heyətin döyüş şəraitində bilik və bacarıqlarının, peşə vərdişlərinin artırılması məqsədilə bölüklərlə hər ay praktiki atəş məşğələləri keçirilir.

Qeyd edək ki, 16076 saylı hərbi hissə DİN-in inzibati binası, Respublika Baş Prokurorluğu və Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin mühafizəsini və müdafiəsini təmin edir.

Şəxsi heyətlə aparılan tərbiyə işinin təşkili barədə isə hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini mayor Müşviq Xankişiyevlə fikir mübadiləsi apardıq. Tərbiyə işinin Daxili Qoşunlar Komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edildiyini nəzərə çatdıran komandir müavini dedi ki, döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında ən vacib şərtlərdən biri də şəxsi heyətin mənəvi-psixoloji durumunun qənaətbəxş olmasıdır: "Yəni müsbət mənəvi keyfiyyətlərə malik olmayan hərbçinin döyüş hazırlığından söhbət belə gedə bilməz. Məhz bu istiqamətdə irəliləyişlərin olması üçün əlimizdən gələni əsirgəmirik. Belə ki, günün nizam qaydalarına uyğun olaraq hər gün saat 10-dan 11-dək mən və tərbiyə bölməsində təlimatçı-psixoloq leytenant Zərifə Rzaquliyeva qarovul xidmətinin şəxsi heyəti ilə tərbiyəvi söhbətlər aparırıq. Sonra isə şəxsi heyətlə psixoloji testlər keçirilir. Bu zaman mənəvi durumu zəif olan əsgərlər aşkar olunarsa, dərhal xidmətdən kənarlaşdırılır”.

Qarovul xidmətinə cəlb olunan hərbi qulluqçular üçün tərbiyə işi planı tərtib edilir və ona əsasən də qarovulda tərbiyə işi təşkil olunur. Tərbiyə işi planında nəzərdə tutulmuş tədbirlər fəallar tərəfindən həyata keçirilir. Qarovul xidmətinə seçilən hərbi qulluqçuların nümunəvi olmasının vacibliyini vurğulayan mayor M.Xankişiyev onların mənəvi-psixoloji durumunun yüksəldilməsi istiqamətində bütün alternativ variantlardan istifadə olunduğunu diqqətə çatdırdı.

Nəticə etibarı ilə qeyd edə bilərəm ki, hərbi hissədə xidmətin yüksək səviyyədə təşkili üçün hərtərəfli şərait yaradılıb. Hərbi hissənin şəxsi heyətinə xidmətdə uğurlar arzulayırıq.

**gizir N.Rzayeva**

***metodiki vəsait***

# SƏHRA ÇIXIŞININ TƏŞKİLİ VƏ KEÇİRİLMƏSİ METODİKASI

***(əvvəli ötən sayımızda)***

*- bölmələrin zabit və çavuşları ilə metodiki təlimat və nümunəvi məşğələlərin keçirilmə müddəti;*

*- şəxsi heyətin, maddi-texniki tədris bazası obyektlərinin, texnikanın, silahların hazırlanması qaydaları;*

*- hərəkət marşrutunun və toplanış rayonunun hazırlıq müddətləri;*

*- yaşayış məntəqələrində, dəmir yollarının keçidlərində, yol ayırıcılarında hərəkətin tənzim edilməsinin təşkili;*

*- bölmələrin hazırlığına baxış keçirmək üçün yer və geyim forması;*

*- səhra çıxışının keçirilmə qaydası;*

*- səhra çıxışının hərtərəfli təmin edilməsi üçün tapşırıqlar;*

*- dövlət və hərbi sirrin saxlanılması, təhlükəsizlik qaydalarının, dövlətin və vətəndaşların şəxsi əmlakının, ətraf mühitin qorunması üzrə keçirilən tədbirlər.*

**Bölmələrin səhra çıxışının keçirilməsi planı xəritə və ya sxem üzərində işlənilir və aşağıdakı bəndlərdən ibarətdir:**

*- səhra çıxışının mövzusu, təlimin məqsədləri və keçirilmə vaxtı;*

*- səhra çıxışına cəlb olunmuş bölmələrin tərkibi, silahlar, çıxarılan texnikanın sayı, motoməsrəflərin, döyüş sursatlarının, imitasiya və digər maddi vasitələrin sərfolunma normaları;*

*- çıxış marşrutlarının sahələri, bölmələrin toplanma rayonu;*

*- məşğələlərin keçirilmə yeri, öyrənilən tədris sualları, onların qısa məzmunu, vaxt;*

*- rəhbərin və təlim iştirakçılarının fəaliyyətləri;*

*- bölük və taqımların marşrut sahələrini və təlim yerlərini keçmə qrafiki;*

*- istirahət yerləri;*

*- idarəetmə və tibbi yardım məntəqələri;*

*- səhra məşğələlərinə cəlb olunmuş zabit heyəti.*

**Səhra çıxışının planına əlavə olunur:**

*- fənlər üzrə saatların bölgüsü;*

*- vaxtı göstərmək şərtilə mövzuların siyahısı;*

*- hərbi hissə komandiri müavinlərinin və xidmət rəislərinin iş planları və digər sənədlər.*

Bölmələrin səhra çıxışının planı hərbi hissə komandirinin müavinləri tərəfindən imzalanır və hissə komandiri tərəfindən təsdiq edilir. Hərbi hissənin səhra çıxışının planı isə hərbi hissə komandiri tərəfindən imzalanır və Daxili Qoşunların Komandanının 1-ci müavini - Qərargah rəisi tərəfindən təsdiq edilir.

Bölmələr üçün marşrut vərəqələri işlənib hazırlanır və bu vərəqələrdə səhra çıxışının başlanğıc vaxtı, hər bir marşrut sahəsində dərslərin başlanğıcı və sonu göstərilir.

Marşrut vərəqələri bölmə komandirinə və məşğələ rəhbərlərinə verilir. Bölmə komandiri sahələrin keçilməsi qrafikinə əsasən marşrut sxemlərini hazırlayır. Bu sxemlərdə bütün marşrut, məşğələlərin keçiriləcəyi sahələr və təlim yerləri, onların keçirilmə müddətləri göstərilir, məşğələ rəhbərlərinin adı, soyadı və hərbi rütbəsi qeyd olunur.

Qeyd etmək lazımdır ki, səhra çıxışına hazırlıq iki həftə qabaqcadan başlanılır. Hərbi qulluqçularda nizamnamə və digər rəhbər sənədlər üzrə biliklər, səhra çıxışında məşq etdirilən normativlərin şərtləri yoxlanılır, idarəetmə siqnalları dəqiqləşdirilir, düşmən bölmələrinin təşkili və fəaliyyət taktikası, atəş məşqlərinin şərtləri, sürücülük və digər məsələlər təkrarlanır. Müxtəlif maneələrdən keçməklə dərə-təpə yerlərdə hərəkət üzrə məşğələlər keçirilir.

İmitasiya vasitələri, yandırıcı, tüstüləyici və zəhərləyici maddələrlə davranma qaydaları öyrənilir.

Bölmələrin səhra çıxışı ərəfəsində bütün hərbi qulluqçularla təhlükəsizlik qaydalarının öyrənilməsi üzrə məşğələlər keçirilir və bu məşğələlərdə törədilmiş cinayətlərə görə hərbi qulluqçuların məsuliyyəti barədə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri çatdırılır. Hər bir zabit, gizir, çavuş və əsgər tutduğu vəzifə həcmində səhra şəraitində praktiki işə hazırlanmalıdır.

Məşğələ rəhbərləri və onların köməkçiləri, eləcə də bölmə komandirlərinin hazırlanması üçün hissə komandiri tərəfindən bilavasitə ərazidə səhra çıxışının keçirildiyi dövr üçün planlaşdırılmış mövzular üzrə metodiki təlimat (nümunəvi) məşğələləri keçirir. Bu zaman təlim iştirakçılarına səhra çıxışının keçirilmə müddətləri, təlim məqsədləri, ümumi niyyət, əsas təlim yerləri, təlim yerlərinə çıxış marşrutları, imitasiya vasitələri, rabitə və tibbi təlimat çatdırılır.

Məşğələlərdə təlim suallarının məşq etdirilməsi ardıcıllığı və təmin yerlərində tədris üsulları daha dərindən öyrənilir. Səhra çıxışına 2-3 gün qalmış tabor (dəstə) komandiri bölük (bölmə, taqım) komandirləri ilə həmin suallar üzrə metodiki təlimat (nümunəvi) məşğələləri keçirir. Səhra çıxışının keçirilməsinə ən azı 1 (bir) sutka qalmış bölük (bölmə) komandirləri çavuşlarla metodiki - təlimat məşğələləri keçirir. Məşğələ rəhbərləri səhra çıxışına ən azı 1 (bir) həftə qalmış səhra çıxışının bütün dövrü üçün nəzərdə tutulmuş məşğələlərin lazımi sənədlərini və planlarını tərtib edir və təsdiq etdirirlər.

Səhra çıxışı ərəfəsində hərbi hissə (tabor, dəstə) komandiri idarə heyətinin zabitləri ilə birlikdə taborun (dəstənin, bölmənin), eləcə də məşğələlərə cəlb edilən digər bölmələrin hazırlığına baxış keçirir.

**Baxış zamanı aşağıdakılar yoxlanılır:**

*- bölmələrin şəxsi heyətinin, silah və döyüş texnikası ilə komplektləşdirilməsi;*

*- səhra şəraitində lazım olacaq maddi-texniki tədris vasitələrinin təminatı;*

*- təşkilati və planlaşdırıcı sənədlərin keyfiyyəti;*

*- şəxsi heyətin ekipirovkası;*

*- texnika və silahın vəziyyəti, YSM-in, döyüş sursatının və imitasiya vasitələrinin mövcudluğu;*

*- zabit və çavuşların məşğələlərin keçirilməsinə hazırlığı, təsdiq olunmuş konspektlərin mövcudluğu;*

*- səhra çıxışına xidmətin təhlükəsizliyi tədbirlərinin yerinə yetirilməsi.*

*Hazırlığa baxış keçirmək üçün müəyyən edilir:*

*- keçirilmə yeri;*

*- vaxt;*

*- baxılacaq suallar;*

*- geyim forması.*

Səhra çıxışının rəhbəri qabaqcadan əraziyə çıxır, obyektlərin, maddi-texniki tədris bazasının, toplanma rayonunun və s. hazırlığını yoxlayır.

**Alayın (briqadanın) səhra şəraitində düşərgə salma qaydaları:**

**1.** Düşərgə yerli hakimiyyət orqanları ilə razılaşmaqla təyin edilir.

O, mümkün qədər tədris obyektlərinin yaxınlığında olmalıdır.

**2.** Düşərgənin ön tərəfini müəyyən edərkən küləklərin ən çox əsdiyi istiqamət nəzərə alınmalıdır.

**3.** Düşərgənin önünün ümumi işlək yollar ilə kəsilməsinə yol verilmir. Düşərgənin cinahları işlək yollardan 50 metrdən yuxarı olmalıdır.

**4.** Düşərgə eyni zamanda eninə və uzununa xətlərlə düzbucaqlı məhəllələrə bölünür.

**5.** Düşərgə onun önünə paralel olan xətlərlə zolaqlara bölünür. Xətlər arasında məsafə çadırların, lazımi tikintilərin və avadanlıqların yerləşməsi sxemindən aslıdır.

**6.** Düşərgənin yerləşdirilməsi boyunca döyüş və digər təkərli və tırtırlı maşınların hərəkəti üçün ayrı-ayrılıqda arxa yollar hazırlanır.

**7.** Düşərgə onun önünə şaquli olan köndələn xətlərə bölünür. Köndələn xətlər taborların və alayın (briqadanın) əlahiddə bölmələri arasında salınır. Düşərgənin köndələn xətləri arasında qalan ön xətdən arxa yona qədər olan sahəsi bu sahənin 1-ci zolağında yerləşən taborun (bölmənin) adını alır.

**8.** Birinci zolaqda (ön və orta xətlər arasında) bölmələr çadırlarda onların nömrələrinə uyğun ardıcıllıqla yerləşdirilir.

***(davamı gələn sayımızda)***

4_Layout 1 27.02.2015 12:41 Page 1



## BİZİM ŞÜAR: "NÜMUNƏVİ HƏRBİ İNTİZAM VƏ YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI UĞRUNDA!"

## UNUTMA!

**1813-1828-ci illərə** qədər Azərbaycanın ərazisi təxminən 410 min kv.km idi. İki dövlət arasında bağlanmış müqavilə əsasında bu ərazilərdən 280 min kv. km İranın, 130 min kv.km isə Rusiyanın əsarəti altına düşdü. Çar Rusiyası dağıldıqdan sonra, **1918-ci ildə** Azərbaycan torpaqlarından 9 min kv.km-lik əraziyə malik İrəvan xanlığı Ermənistana, 7 min kv.km-lik ərazidə qərar tutan Dərbənd xanlığı isə bolşevik Rusiyasına verildi.

**1918-1920-ci illərdə** cəmi 23 ay yaşayan Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min kv.km olub.

Bolşevik Rusiyasının qoşunlarının **1920-ci ilin 28 aprelində** ADR-i işğal etməsindən sonra ərazilərimizin bölünməsi bu şəkildə davam etdirildi:

Zəngəzur, Dərələyəz və Dilcan (cəmi 10,9 min kv.km ərazi) Ermənistana, Borçalı mahalı (cəmi 9,5 min kv.km ərazi) Gürcüstana verildi.

Azərbaycan torpaqlarının qonşularımıza bağışlanması SSRİ dövründə də Moskvanın diqtəsi ilə davam etmişdi. Bu illərdə Göyçə mahalı və Naxçıvandan 9 yaşayış məntəqəsi, Qazaxdan 50 kv.km-lik ərazi, Cəbrayıl qəzasından Nüvədi, Ernəzir və Tuğud kəndləri, 40 kv.km-lik meşə sahəsi, Tovuz rayonunun 7,6 kv.km-lik ərazisi ermənilərə verilmişdir.

**1988-1993-cü illərdə** ərazisi 86,6 min kv.km olan Azərbaycanın aşağıdakı əraziləri işğal altına düşmüşdür: Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) cəmi 4400 kv.km idi.

| | | |
|---|---|---|
| **Şuşa şəhəri** | **- (289 kv.km)** | **- 8.05.1992** |
| **Laçın rayonu** | **- (1835 kv.km)** | **- 17.05.1992** |
| **Kəlbəcər rayonu** | **- (1936 kv.km)** | **- 2.04.1993** |
| **Ağdam rayonu** | **- (1094 kv.km)** | **- 23.07.1993** |
| **Cəbrayıl rayonu** | **- (1050 kv.km)** | **- 18.08.1993** |
| **Füzuli rayonu** | **- (1386 kv.km)** | **- 23.08.1993** |
| **Qubadlı rayonu** | **- (802 kv.km)** | **- 31.08.1993** |
| **Zəngilan rayonu** | **- (707 kv.km)** | **- 29.10.1993** |

# GÜLƏŞÇİLƏRİMİZ DÜNYA KUBOKUNUN SAHİBİ OLDU



**Fevralın 20-də İranın paytaxtı Tehran şəhərində yunan-Roma güləşi üzrə böyüklər arasında Dünya Kubokuna yekun vurulub.**

Yarışda Azərbaycanla yanaşı, İran, İsveç, Almaniya, Rusiya, Macarıstan, Türkiyə və Ermənistan güləşçiləri iştirak ediblər.

Püşkatmanın nəticəsinə əsasən, Azərbaycan güləşçiləri İran, İsveç və Almaniya komandaları ilə A qrupunda mübarizə aparıb. B qrupunda isə Rusiya, Macarıstan, Türkiyə və Ermənistan komandaları qüvvələrini sınayıb.

İlk olaraq yerli İran idmançıları ilə qarşılaşan güləşçilərimiz gərgin keçən görüşü 6:2 hesablı qələbə ilə başa vurub. Ardınca Almaniya və İsveç komandalarını 7:1 hesabı ilə məğlub edən yığmamız qrup görüşlərini lider tamamlayıb. Bu nəticə ilə yunan-Roma güləşi yığmamız Azərbaycan güləş tarixində yeniliyə imza atıb. Belə ki, Azərbaycan idman tarixində ilk dəfə olaraq yunan-Roma komandamız Dünya Kubokunun finalına vəsiqə qazanıb.

Finalda güləşçilərimiz digər qrupun birincisi olmuş Rusiya yığması ilə qarşılaşıb. Gərgin keçən qarşılaşma 4:4 hesablı bərabərliklə tamamlansa da, xalların keyfiyyətinə görə 18:17 hesabı ilə komandamızın xeyrinə başa çatıb. Bu nəticə ilə Azərbaycan yunan-Roma güləşçiləri ilk dəfə Dünya Kubokunun sahibi olub.s

**"Əsgər"**

# MƏSULİYYƏTLİ, BACARIQLI VƏ SAVADLI HƏRBİ QULLUQÇULARIMIZ

***Daxili Qoşunların mətbu orqanı olan "Əsgər" qəzetində maraqla izlənilən rubrikalardan biri də "Nümunəvi xidmət"dir. Şəxsi heyət xidmət dövründə yüksək nizam-intizamı və müsbət keyfiyyətləri ilə fərqlənən hərbi qulluqçular barədə məlumatları fəxr hissilə oxuyur. Bu sayımızda da sizə 99713, 67987 və 16076 saylı hərbi hissələrin nümunəvi xidmətilə seçilən hərbi qulluqçularını təqdim edirik.***

**Gizir Rəşad Ağaquliyev** 1985-ci il sentyabrın 6-da Bakı şəhərində dünyaya göz açıb. Orta məktəbi 2003-cü ildə bitirdikdən sonra Azərbaycan Beynəlxalq Universitetinin "Riyaziyyat-informatika" fakültəsinə qəbul olub. 2007-ci ildə universiteti uğurla başa vuran Rəşad elə həmin ildə də əsgəri xidmətinə Müdafiə Nazirliyinin Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissəsində başlayıb. Elmə, biliyə dərin marağı olduğu üçün 2008-ci ildə Türkiyənin Əskişəhər Osman-Qazi Universitetinə qəbul olunub.



Savadı, dünyagörüşü və Vətənə olan bağlılığı onu həqiqi hərbi xidmətə cəlb edir. Beləliklə, o, 2013-cü ildə Daxili Qoşunların 99713 saylı hərbi hissəsində xidmətə başlayıb. İlk günlərdən nümunəvi davranışı, xidmətə davamiyyəti ilə digərlərindən fərqlənən hərbçimiz verilən bütün tapşırıqları böyük həvəslə yerinə yetirərək yoldaşlarına örnək olur. Hazırda o, xüsusi vasitələrin tətbiqi yarımqrupunun komandiri vəzifəsindədir. Döyüş hazırlığını hər zaman yüksək səviyyədə saxlayan komandir hərbi qulluqçunun hər zaman ayıq-sayıq, rəhbərlik tərəfindən verilən hər bir tapşırığın qeyd-şərtsiz, çevik şəkildə yerinə yetirmək qabiliyyətində olmasını diqqətə çatdırdı. Əlavə etdi ki, əsl hərbçi qətiyyətli, dönməz və iradəli olmalıdır: "Hərbçilik peşəsi əzmkarlıq, cəsarət tələb edir. Vətənə sədaqət, xalqa xidmət insanın öz daxilindən gəlməlidir və bu yolda lazım gələrsə, canımızı da fəda etməyə hazır olmalıyıq".

Şəxsi heyətlə işləməyin xüsusiyyətlərindən danışan yarımqrup komandiri hər bir hərbçiyə fərdi yanaşdığını, müntəzəm olaraq mənəvi-psixoloji durumlarının yaxşı olması üçün onlara öz məsləhətlərini verdiyini dedi.

Hərbi hissədə keçirilən bütün təlim və məşğələlər ciddi diqqət mərkəzində saxlanılmaqdadır, xüsusilə də atəş hazırlığı məşğələləri. Ürəyi Vətən eşqilə döyünən gizir R.Ağaquliyev hesab edir ki, torpaqlarımızın 20 faizinin düşmən tapdağı altında olduğu bir vaxtda şəxsi heyətin fərdi silahların taktiki-texniki xüsusiyyətlərini dərindən mənimsəməsi son dərəcə vacibdir. Necə deyərlər, bu gün silahla davranmağı bilməyən hərbi qulluqçu sabah Vətənin müdafiəsinə qalxa bilməz.

**gizir N.Rzayeva**



**Əsgər Murad Baxşıyev** 67987 saylı hərbi hissənin nizam-intizamlı hərbi qulluqçularından biridir. O, 1996-cı il martın 3-də Şirvan şəhərində anadan olub. Orta təhsillidir. 2014-cü ilin aprel ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Hazırda patrul taqımında xidmət edir. Hissə komandanlığı Muradın çox bacarıqlı olduğunu bildirir.

Bölük komandiri baş leytenant Rahib Cəfərov onu xarakterizə edərkən söylədi ki, əsgər M.Baxşıyev biliyi, cəsarəti, çalışqanlığı ilə öz yoldaşlarına daim örnəkdir: "Əsgər M.Baxşıyev vəzifə borclarını, ona təhkim olunmuş silahın taktiki-texniki xüsusiyyətlərini dərindən bilir və istənilən tapşırığı vaxtında və layiqincə yerinə yetirir. Hər zaman ona göstərilən etimadı doğrultmağa çalışır".

Hərbi qulluqçumuz nümunəvi xidmətinə, eləcə də 2014-cü ilin 2-ci yarımilinin nəticələrinə görə hərbi hissə komandanlığı tərəfindən "Təşəkkür"lə mükafatlandırılıb.

Əsgər M.Baxşıyev Daxili Qoşunların sıralarında Vətənə xidmət etməyi özü üçün böyük şərəf hesab edir.

O, ictimai-siyasi biliklərin, habelə döyüş hazırlığının artırılması üzrə keçirilən nəzəri və praktiki məşğələlərdə fəallıq göstərir. Atəş və fiziki hazırlıq məşğələlərində isə xüsusilə müsbət cəhətdən fərqlənir.

Əsgər M.Baxşıyev bundan sonra da Daxili Qoşunların sıralarında qalacağını, Vətənə sədaqətlə xidmət edəcəyini vurğuladı. Əsgərimizə bundan sonrakı xidməti fəaliyyətində uğurlar arzulayırıq.

**leytenant X.Tağıyeva**



**Əsgər Elməddin Bayramov** Daxili Qoşunların 16076 saylı hərbi hissəsinin mühafizə bölüyündə müddətli həqiqi hərbi xidmətdədir. O, 1995-ci ildə iyulun 15-də Balakən rayonunun Qazma kəndində anadan olub. Orta məktəbi 2009-cu ildə boya-başa çatdığı kənddə bitirən E.Bayramov hazırda mühafizə bölüyünün qarovul xidmətində fəallığı ilə seçilən əsgərlərdən biridir. Yüksək fiziki hazırlığı ilə yoldaşlarına nümunə olan hərbi qulluqçumuz döyüş hazırlığının yüksək səviyyədə saxlanılması üçün keçirilən məşğələlərdə davamlı uğurlar qazandığına görə bölük komandiri tərəfindən dəfələrlə mükafatlara layiq görülüb. Bölük komandiri kapitan Elnur Haqverdiyev əsgər E.Bayramovun verilən tapşırıqların icrasına olduqca məsuliyyətlə yanaşdığını dedi. Kapitan E.Haqverdiyev bir komandir kimi ona güvəndiyini vurğuladı. Əsgər E.Bayramovun istər fiziki hazırlıq, istərsə də atəş məşğələlərində müsbət nəticələr göstərdiyini deyən bölük komandiri onu, eyni zamanda sözün əsl mənasında vətənpərvər əsgər kimi xarakterizə etdi. Vətəninə, torpağına ürəkdən bağlı olan əsgər E.Bayramov öz fikirlərini bizimlə bölüşdü: "Ən böyük arzum torpaqlarımızın tezliklə işğaldan azad edilməsidir. Ərazi bütövlüyümüzün bərpası naminə lazım gələrsə, son damla qanımadək döyüşməyə hazıram. Mərdlik, cəsarət bizə döyüş meydanında lazımdır. Vətənpərvər insan üçün Vətənin hər qarışı əzizdir".

**gizir N.Rzayeva**

# Quduzluq xəstəliyinin epidemiologiyası və profilaktikası

Quduzluq - heyvani mənşəli, sinir sisteminin zədələnməsi ilə xarakterizə olunan və ölümlə nəticələnən virus infeksiyasıdır. Bu xəstəliklə bütün heyvanlar, xüsusən canavar, tülkü, it, pişik və s. xəstələnə bilər. İnsanın bu xəstəliyə yoluxması quduz heyvanın dişləməsi (cırmaqlaması) və onun ağız suyunun birbaşa zədələnmiş dəri və selikli qişalara düşməsi nəticəsində baş verir. Xəstəliyin inkubasiya (gizli) dövrü 12 gündən 3 aya, nadir hallarda isə 1 ilə qədər uzana bilər. İnkubasiya dövrünün müddəti bir sıra amillərdən asılıdır. Belə ki, virusun yoluxma yeri (dişlənən nahiyə) mərkəzi sinir sisteminə yaxın olduqca inkubasiya dövrünün müddəti qısa olur. Üzdə, başda, yuxarı ətraflarda olduqda qısa olursa da, aşağı ətraflarda olduqda xeyli uzanır. Bundan əlavə, inkubasiya dövrünün müddəti yaşdan, dişləyən heyvanın növündən (canavar, tülkü və it dişlədikdə qısa olur), yara nahiyəsinin ölçüsündən, dərinliyindən, yaraya düşən virusun miqdarından asılı olaraq dəyişir. Xəstəlik tədricən başlayır. Ümumi zəiflik, kefsizlik, bədən hərarətinin bir qədər yüksəlməsi, yara yerində ağrı, şişkinlik və qızartı olur. 2-3 gündən sonra xəstəliyin şiddətlənmə dövrünə xas olan əlamətlər başlayır, hidrofobiya (sudanqorxma) tutmaları əmələ gəlir: su içmək istədikdə, hətta gördükdə, səsini eşitdikdə xəstə boğulur, göyərir, qışqırır. Bu cür tutmanı hava axını (aerofobiya), qüvvətli işıq (fotofobiya), səs (akustikofobiya) də törədə bilər.

Quduzluğun profilaktikası xəstəliyin heyvanlar arasında yayılmasına və insanların ona tutulmasının qarşısının alınmasına yönəldilməlidir. Ona görə də evdə saxlanılan bütün itlərin və pişiklərin qeydiyyatı aparılmalı, onların profilaktik vaksinasiyası həyata keçirilməlidir. Bununla yanaşı, xəstəlik daşıyıcısı olan sahibsiz heyvanların, xüsusən itlərin («gəzən təhlükə») zərərsizləşdirilməsi istiqamətində müvafiq tədbirlər aparılmalıdır.

Quduzluğun effektli müalicəsi mümkün olmadığından quduz heyvanların dişləməsindən sonra profilaktik tədbirlər təxirə salınmadan başlanılmalıdır.

Heyvanların dişləməsi zamanı yara (və ya sıyrıq, cırmaq yerləri) sabunlu su ilə bir neçə dəfə yuyulmalıdır. Sonra yaranın kənarları 3%-li yod tinkturası ilə işlənir və steril sarğı qoyulur. Həyati göstərişlərlə cərrahi müdaxiləyə ehtiyac olmadıqda ilk 3 gün ərzində yarada kəsik aparmaq və ya onu tikmək olmaz (əlavə zədələrə səbəb olaraq inkubasiya dövrünü qısaltdığına görə).

Antirabik (rabies - quduzluq) peyvənd şərti və şərtsiz olaraq aparılır. Əgər dişləyən heyvanın xəstə-quduz olması bəllidirsə və ya dişləyən heyvan naməlumdursa, onda peyvənd şərtsiz aparılır.

Dişləyən heyvan məlumdursa və onu 10 gün müddətində müşahidə etmək mümkündürsə, eyni zamanda heyvanda heç bir quduzluq əlaməti yoxdursa, aparılan peyvənd şərti olur. Şərti peyvənd zamanı 10 gün müddətində dişləmiş heyvan ölməzsə, peyvənd aparılması dayandırılır. Şərtsiz peyvənd zamanı isə peyvənd axıra kimi aparılmalıdır. Vaxtında edilən peyvənd xəstəliyin qarşısını alan etibarlı vasitədir.

**Tibb xidmətində Sanitar-epidemiologiya dəstəsinin rəisi – baş sanitar həkim t/x polkovnik - leytenantı Alışan Musayev**

## Allah rəhmət eləsin

DQBİ-nin şəxsi heyəti polkovnik Salman Abdurəhmanova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16076 saylı hərbi hissənin şəxsi heyəti baş leytenant İlham Muradova **bacısının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DQBİ-nin şəxsi heyəti gizir Vüsal Gözəlova **xalasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16076 saylı hərbi hissənin şəxsi heyəti baş çavuş Fəridə Cabbarlıya **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: mayor R.Sarıyev

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 560-12-21

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000